# SÖZƏ İNAM



BƏHLUL
ABDULLA

*filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi*

Danışıq etiket tipləri sırasında ünsiyyət aktı olmaqla and da, dua da, alqış da, qarğış da ümumi şəkildə insan münasibətlərinin sözlə ifadə formasıdır. Qarşı tərəflərin bir-birlərinə inanıb-inanmamalarının, arzuistəklərinin, kin-küdurət, qəzəblərinin qarşılıqlı əksetdirmə, üzəçıxarma faktı olmaqla bu etiket deyim - söyləmələrinin konkret, təyin olunmuş zaman və məkan asılılığı yoxdur. Onlar müəyyən səbəb, görülmüş, görülən, görüləcək iş müqabilində birinin başqasına mövqeyini, zərurət yarandıqda, əlbəəl açıqlayır və bu məqamda nə vaxt-zaman, nə də yer-məkan hesaba alınır. Bu üzdən, sözünü açdıqlarımız tam olaraq heç mərasim qəlibinə də qablaşa bilmirlər.

And, dua, alqış, qarğış bilavasitə danışıq etiket tipi olmaqla əslində "Arxaik mifoloji görüşlərlə bağlı olub sözün magik gücünə inamı, ona əski bağlılıq hissini əks etdirən mifoloji- magik strukturlu mətn tipidir (*tipləridir*-**B.A**). Sözlə onun (*andın, həmçinin duanın, alqışın,qarğışın*-**B.A**) bildirdiyi obyekt arasında köklü fərq qoymadan, bu baxımdan sözlə cismi bir sırada görən arxaik düçüncəni əks etdirir. Bu mənada arxaik düşüncədən ötrü and (*həmçinin dua, alqış, qarğış*-**B.A**) işarəsi obyektin özü kimi qavranır" (C.Bəydili). Və bu qavranma içində yaranan dərkdə, sözsüz ki, gerçəkliyə inam üstün axarda olur. Arxaik düşüncənin formalaşdırdığı inam və etiqadların sistemli məhsullarından olmaqla andlar, dualar, alqışlar, qarğışlar insanların əski təsəvvür, baxış və görüşlərini həmçinin duyum və münasibətlərini semiotikləşdirir. Bu işarələnmə, sözsüz, öz etiket funksiyasının sərhədlərini aşmır, yaxud da aşa bilmir. Baxmayaraq ki, onlar bəzi məqamlarda ritual çevrəsinə (ayinlərin dəqiq icrası zamanı) daxil olurlar. Amma burada da and, dua, alqış, qarğış ritual mətn tipi yox, ritual aktının, bir növ, sözlə müşayiətçisi olur və beləliklə, bütövlükdə etiket səciyyəsi daşımır.

Barələrində söz açdıqlarımızı etiket modelinə qəlibləşdirən, sığışdıran başlıca yönlərdən biri və olsun ki, ən əsaslısı onların deyilişi anında, zamanında nitq tonunun tələffüzdə,intonasiyada müntəzəm olaraq dəyişməsi, bütövlükdə üz cizgilərinin şəkildən-şəklə düşməsi-mimika, əl-qol, ümumilikdə bədən hərəkətlərijestlərin açıq-aydın hiss olunması, görünməsidir.

And, dua, alqış, qarğış barədə ümumilikdə söz açmaqla onların eyni olmasını söyləmək fikrində deyilik. Buna onların formul, struktur və semantik xüsusiyyətləri də imkan vermir. Misal üçün, "haqqı" (Quran haqqı, torpaq haqqı, su haqqı, canım haqqı və s.), " and olsun//and içirəm" ("Tanrıya and olsun//and içirəm", "sənin canına and olsun//and içirəm səni, məni yaradana", "çörəyə and olsun// and içirəm" və s.).

" Özüm ölüm" , "sən öləsən ", "balam canı" , "atam canı" və s. kimi deyim-ifadələr andönü- andsonu formullardır və formul xatırlananlarla bitmir. Həqiqət budur ki, etnosun ümumi mədəniyyəti ilə birlikdə davamlı formalaşma,təkmilləşmə mərhələlərindən adlayan andlarda söylənilmiş fikirdəki mahiyyətin yalan yox, gerçək olması andiçmə ilə təsdiqlənir. Odur ki, ta əski çağlardan andiçməyə çox ciddi münasibət bəslənilmiş, yalandan andiçmənin isə fəlakətli olacağına inanılmışdır. Deyilənə görə, oda səcdə zamanı inamlarında andiçmə sakral görüşlərin lap önündə duranlardan olub. Cəzaların sayı çox olsa da, ölüm cəzası yalnız və yalnız yalandan andiçməyə görə təyin olunurmuş. Çünki bütün fitnə-fəsadın, qan-qadanın, əyri-üyrünün kökündə daha çox yalan durur.

İçilmiş andın doğru, yoxsa yalan olmasını müəyyənləşdirmək ritualları da olub. Biz bunu mifoloji qatlı " Qurd seyiri" ritualında aydın şəkildə görürük. Ritualdan bəlli olur ki, bir kimsənin andının doğru olubolmamasını yoxlamaq üçün yığışanların şahidliyi ilə qurd seyiri (*qurdun topuğunun üst hissəsi seyir adlanır)* yandırılır. Qurd seyiri yandırıldıqda yığılırsa, sınanılan kəsin andı yalandırsa, o da özündən asılı olmayaraq yığılmağa başlayır. Qurd seyiri qutsal bilinir. Bu üzdən də, onun yandırılması, ümumiyyətlə, uğursuzluğu işarələyir. Odur ki, yalandan and içən daha dəhşətli əzablara mübtəla olacağını hesaba gətirir və qurd seyirinin yandırılmasına imkan vermədən günahını boynuna alır.

Deyiliş zamanı əvvəllərində və sonlarında daha çox "görüm","səni görüm ", " görüm səni" , " onu görüm" , " görüm onu" formullarından istifadə olunan dua, alqış, qarğışların da həm ümumi, həm də səciyyəvi cizgiləri vardır. Ümumi deyəndə biz onların deyiliş baxımından (mimika, jest də buraya daxildir) eyni formullu olduğunu nəzərdə tuturuq. Bundan savayı, elə andlar kimi, fərdi nitq sferasına daxil olan dua, alqış, qarğış da şəraitlə, bu şəraitdə yaranan münasibətlə bağlı olur. Və bu yönlər, arxada da xatırtlatdığımız

kimi, dua, alqış, qarğış da etiket, daha düzü, nitq etiket tipi kimi yanaşmağı zəruriləşdirir. Ən mühümü budur ki, dua, alqış, qarğışın da ilk nümunələri əski görüşlərlə, sözün təsiredici-magik gücünə, sehr aktlarına inamın mövcudluğu zamanına, mifin hələ ömrünü səngitmədiyi çağlarla bağlıdır.

Biz bir vaxt "Kitabi-Dədə Qorqud"a müraciətlə sözünü açdığlarımızın hər birini ayrıca tədqiq etmişik ("Kitabi-Dədə Qorqud" da nitq etiketlərinin etnomifik poetikası- and,dua,alqış-qarğış-2007). Amma bununla belə, alqışlarla dualar bir-birinə çox yaxındır, bəzi hallarda, demək olar ki, eynidir. Elə " Kitabi-Dədə Qorqud"da da alqışla dua bir götürülür, bir məzmun ifadə etdiyi nəzərə çatdırılır. Misal üçün, abidənin birinci boyunda övladı olmayan Dirsə xan bu "qara eyibi" üstündən götürmək üçün xanımının sözüylə acı doyuzdurur, çılpağı geyindirir, borclunu borcdan qurtarır. Oğuz bəylərinə qonaqlıq verir. Boyda deyilir ki, qonaqlıqda olanlar "əl götürdülər hacət dilədilər. Bir ağzı ***dualının alqışıyla*** Allah-taala bir əyal verdi. Xatunu hamilə oldu". Bunun oxşarını abidənin üçüncü boyunda da görürük. Bayındır xanın məclisində Baybörə bəy atalarla-oğulları yanaşı oturmuş gördükdə oğul övladı olmaması səbəbindən ürəyi qövr eləyir və " böyürə-böyürə" ağlamağa başlayır. Bəylər bəyin niyə ağladığını öyrənincə "... üz göyə tutdular. Əl qaldırdılar ***dua*** elədilər, Allah sənə bir oğul versin dedilər". Elə buradaca Baybican bəyə də Allah-taalanın bir qız verməsi (Baybicanın oğlu var) sarıdan dua edirlər. Buradakı məsələ onda deyil ki, bu dua-alqışlardan sonra sözü gedənlərin övladı olur. Əslində bu elə belə də olmalı idi. Çünki " Kitabi-Dədə Qorqud" un yaşı nəinki 1300, heç 1500 illə də ölçülən yaş deyil. Bu yaş mif dünyasının ("Təpəgöz boyu", "Dəli Domrul boyu"), sözün magik gücünə (Qorqud atanın "Çalarsan əlin qurusun" deməsi ilə Dəli Qarçarın əlinin havadan asılı qalması) inamın varlığı ilə ölçülməli olan bir yaşdır. Məsələ ondadır ki, abidə də dualardan sonra açıqca bildirilir ki, "ol zamanda bəylərin ***alqışı alqış, qarğışı qarğış idi. Duaları*** müstəcab olurdu".

İlk növbədə Azərbaycan türkünün və ümumiyyətlə "türk millətinin dualarının (təkcə dualarınınmı?-B.A) ən dəyərli bir xəzinəsi" (B.Ögəl) olan " Kitabi-Dədə Qorqud" həqiqəti, əlimizdə olan örnəklərin semantikası bizi alqışlarla duaları bir götürməyə, bir başlıq altında ümumiləşdirməyi tələb edir. Ancaq elə zənn olunmasın ki, biz ümumiyyətlə alqış və duaların eyni olması qənaətindəyik.

Qaldı alqış və qarğışa, düşünürük ki, bu söz- ifadələrin özləri barədə bir-iki kəlmə söyləməyə ehtiyac duyulur. Bildiyimiz kimi, ruhların varlığına, mənsub ocaqla bağlılığına inam olub, elə indi də var. Ta əskilərdən üzü bu yana həm də insanların təsəvvüründə belə bir etiqad stabilləşib ki, bu ruhlar, adətən, xeyirxah və bədxah olurlar. Adamların arzu-istəyini, müsbət və mənfi anlamda həyata keçirən, onları müəyyən işlərə, xeyir və eləcə də şər əməllərə sövq edən də guya elə bu ruhlardır. Belə güman edirik ki, "alqış" ifadəsindəki "al" "qarğış"dakı əslində "qara"da elə ruh adlarıdır. Birincisi xeyirxah, ikincisi isə bəd, şər əməllərə hamilik eləyir.

İstər "alqış", istərsə də "qarğış"dakı "qış//ğış" əslində səsləmək, çağırmaq, söyləmək anlamına gələn "qışqırmaq" felindəndir. Deyək ki, "qışqırmaq" özü də ikimənalıdır:

a) sadəcə olaraq qışqırıq ilə kimisə səsləmək, çağırmaq, söz demək;

b) "qışqırmaq" özü bir "qara"ya qoşulur və"qara qışqırıq" mənasını alır.

Bu sonuncu da həmişə mənfi məna ifadə etməklə hay-küyçünün, özündənmüştəbeh olanın xasiyyətini səciyyələndirir.

Alqış və qarğışların yaranmasına bir səbəb insanların təbiət hadisələrinin, təbiətdə rastlaşdıqlarının sirlərinə nəinki gərəyincə, hətta primitiv şəkildə belə, bələd olmamalarıdırsa, ikinci səbəb əfsun-ovsuna, sözün sehirli gücünə etiqadın, sakral və demonoloji varlıqlara inamın olmasıdır. Hətta bu çağlarda alqış və qarğışın başa gələcəyinə o ölçüdə inanılıb ki, onun nahaq, ünvansız söylənilməsi ilə fəlakətin, uğursuzluğun olacağını düşünüblər. Belə hallarda tezliklə səhvi düzəltməyə, bununla da, xüsusən qarğışın törədəcəyi qadabalanı sovuşdurmağa cəhd edilmişdir. Misal olaraq yenə də "Kitabi-Dədə Qorqud" a müraciət edək. Abidənin birinci boyunda xəyanatkarların felinə inanan Dirsə xan günahsız oğlu Buğacı Qazılıq dağında ölümcül yaralayır. Oğlunu-Buğacı axtaran ana gəlib buraya yetişir. Buğacı qan içində gördükdə o, günahı Qazılıq dağında, bu dağın sularında, otlarında, qaçarlarında bilib qarğış söyləyir:

***Qazılıq dağı axar sənin suların***
***Axar ikən axmaz olsun!***
***Bitər sənin otların Qazılıq dağı,***
***Bitərkən bitməz olsun!***
***Qaçar sənin keyiklərin, Qazılıq dağı,***
***Qaçarkən qaçmaz olsun, daşa dönsün!...***

Səsə gözlərini açan Buğac anasının qarğışını eşidir. Və onun sadaladıqlarının günahsız olduğunu, qarğışın nahaqdan söylənildiyini eşidincə nitq etiketinin mülayim və bir qədər də yalvarıcı formasında anasından qarğış söyləməməyi xahiş edir. Çünki onun bu kökə düşməsində Qazılıq dağı, bu dağın suyu, daşı, qaçarı, bitəri yox, öz doğmaca atası günahkardır.Mətndə dağ, su, daşadönmə motivi sırf mifoloji aspektlidir və onlar barədə bir-iki söz deməyi yararlı sayırıq.

Alqışlar-dualar sırasında "Dağ arxalı olasan", "Dağlar səngərin olsun", "Dağ-daş yaylağın olsun", "Qara dağların yıxılmasın", "Qarlı qara dağların yıxılmasın", "Qarlı yatan qara dağların sana yaylaq olsun", "Qarşı yatan qara qarlı dağlardan aşar olsa, Allah-taala sənin oğluna aşut versin" və s. kimi örnəklər olmaqla bərabər, "Dağ başına uçsun", "Dağlar lovuna otursun", "Dağ bəlasına gələsən" və s. qarğışlar da vardır.

Əvvəldən deyək ki, ümumiyyətlə "Türklər dağları bir torpaq və daş yığımı kimi deyil, hisslər və duyğularla yoğrulmuş, kişilik qazanmış bir varlıq kimi düşünmüşlər"(B.Ögəl). Əski çağ əcdadlarımız dağları, qayaları, daşları deyiləni başa düşən, səsə səs verən, xoş niyyətlə keçənə yol, keçid (aşut) verən, istək yerinə yetirən, xəbər çatdıran, sığınacaq verən, uğur arzulayan, bəddualardan qoruyan, hətta qeyzlənən zənn etmişlər. Odur ki, onlar dağlarla danışır-xəbərləşir, dağlara salam verir, dağlara and içir, dağların şəfaverici qida, su qaynağı olmasına inanırlar. Dağa belə bir baxış və münasibət, sözsüz, mifoloji anlamlı olmaqla əski təsəvvür, inam-etiqadlarla bağlı məsələdir. Və bu dağın hami-qoruyucu, artımçı, ən əsaslısı, göydən gələn, Tanrının göndərdiyi bilinməsi ilə ilgilidir.

Dağın göydən enməsi, yaxud endirilməsi inam-mifi təkcə türklərə yox, özgə etnoslara da məxsusdur. Misal üçün, hindlilərin təsəvvür-etiqadınca dağlar qanadlı olub və göydən uça-uça yerə qonmuşlar. Hətta sonralar da bu dağlar bir yerdən istədikləri başqa yerə çətinlik çəkmədən uçurmuşlar. Onların uçuşundan kəndlər-şəhərlər, yerlər-yurdlar viran olurmuş. Bəladan qurtarmaq üçün insanlar Tanrıya-İndraya müraciət etmiş, o da ildırım silahıyla vurub dağların qanadlarını kəsmiş, onları həmişəlik oturaq etmişdir (A.N.Afanasyev).

Azərbaycanda nəinki dağın, bu dağlardakı daşların da göydən düşməsi inamını özündə qoruyan mif örnəkləri vardır. Misal üçün, bir mifdə deyilir ki, "Qızılca kəndinin yaxınlığında bir təpə var. Adına Dabantəpə deyirlər. Orada olan daşlar ocaqdı. Onlar göydən düşüblər, keçmişi də bilirlər, gələcəyi də . Adamların dərdini də bilirlər, dərmanını da" ("Azərbaycan mifoloji mətnləri"). Yadımıza salaq ki, "Koroğlu" eposunda Alı kişinin oğlu üçün düzəltdirdiyi qılınc da göydən düşmüş və dağda tapılmış daşdandır.

Dağların, daşların deyiləni başa düşməsi, istək yerinə yetirən olması ilə bağlı inam, etiqad da var və buna çoxsaylı miflərdə də tuş oluruq. Bu məzmunlu miflərin birində bildirilir ki, bulağın olduğu yeri itirən çobanın özü də, qoyunları da bərk susuzlayır. Əli hər yerdən üzülən çoban Qır dağına müraciət edir: "...ey Qır dağı, sən buradan bir bulaq çıxar, mən bir ağ, bir qara qoyun qurban kəsərəm. Çobanın sözü ağzından qurtarar-qurtarmaz Qır dağının döşündə göz yaşıtək dumduru, buztək soyuq bir bulaq qaynayıb çıxır. Yanğısını söndürən, qoyunlarını susuzluqdan qurtaran çoban sözünə dönük çıxır. O, boyun olduğu qurbanları kəsmir. Bundan qəzəblənən Qır dağı çobanı sürüsüylə daşa döndərir"("Azərbaycan mifoloji mətnləri").

Azərbaycan mif və əfsanələrində dağın uşaq verməsi, yaxud elə dağda daşın uşağa çevrilməsi motivi də yayğındır. Lələ ilə bağlı əfsanələrin birində deyilir ki, Yaxşının uşağı olmurmuş. O, bir gün "...ağlaya-ağlaya Lələ dağına çıxır. Şalını açıb nar kolları üstə ürgənc qurur. Ürgəncinin içinə Lələ dağından sığallı bir göy daş seçib bələyə qoyur. Yaxşı bir də baxır ki, ürgəncdə uşaq ağlayır. Sevinir. Uşağı götürüb evə qayıdır", ərinə və qaynına "bildirir ki, uşağı onlara Lələ dağı verib. Bu dağ tək olduğu üçün "Lələ dağı" deyirmişlər. Dağın adı ilə uşağın adını da Lələ qoyurlar" ("Azərbaycan xalq əfsanələri").

Daşdan yaranmasını sonradan Lələ özü də belə bildirmişdir:

***Əziziyəm daşdan mən,***
***Kirpikdən mən, qaşdan mən.***
***Nə atam var, nə anam,***
***Yaranmışam daşdan mən*****.**

Yaxud, yenə də uşaq istəyində olanlar:

***Vəsməni qaşda sına,***
***Ağılı başda sına.***
***Diləyin hasil olar,***
***Baxtını daşda sına.*** –

kimi örnəklərdəki baxtın daşda sınanılması etiqadına inandıqları üçün niyyət tutub dağlardakı daş-pir, ocaqların yanına gəlir və burada çeşid-çeşid rituallar icra edirlər. Daşkəsən rayonunun Dəstəfur kəndi yaxınlığında "Gəlin qayası" adlı bir türbə vardır. Övladsızlar buraya niyyətlə gəlib türbənin çevrəsindəki xırdaca daşlardan yığıb həmin "Gəlin qayası"nın üstünə atırlar. Daşlardan orada qalanda uşaqları olacağına inanırlar. Gəncəbasar bölgəsinin Zurvand kəndi yaxınlığındakı "Daşpir" adlanan ocağa da elə bu istəklə gəlirlər (M.Əhmədov).

Oğul övladı istəyində olan qadın qızını dağlardakı ocaqlara aparıb və burada sakral bilinən ağ, qara daşlara müraciətlə və qızına işrə etməklə

***Ağ daş, qara daş,***
***Buna bir qardaş*** –

deyə, ovsun nəğməsi oxuyur və bununla da arzusuna qovuşacağına inanır.

Dağlardakı daş türbələri naxoşluğun sovuşdurucusu olmasına da güclü etiqad olub və elə indinin özündə də vardır. Azərbaycanın, demək olar ki, əksər bölgələrində ocaq, pir bilinən ortası iri həlqəli daşlar çoxdur. Niyyət tutub xəstələnəni belə ocaqlara gətirirlər. Əgər o, daşdakı həlqədən keçsə, tezliklə sağalacağına ümid artır. Ehtimala görə, belə məqamlarda daşın həlqəsi genəlir.

Deyilənlər belə qənaət doğurur ki, dağa, daşa ehtiram göstərmənin, ondan mərhəmət ummanın, himayəsinə sığınmanın, övlad istəmənin və sairin tarixi çox əskidir, hətta bu, ilkin yaşayış dövrü insanlarının daşdan məişət vasitəsi olaraq faydalanmağa başladıqları çağlarla bağlıdır. Bundan savayı, təbiət və cəmiyyətdəki dəyişmə və əvəzlənmələrin dağlara, daşlara təsir etmədiyini müşahidədən keçirən həmin zamanın insanları onları əbədilik timsalı saymış, ilahi qüdrətdə bil-

miş, fövqəlgücünə inanmış, hər nəsnəni duyan, işlərə gözqoyan zənn etmişlər. Bütün bu yönlər, həmçinin bir neçəsini örnək olaraq göstərdiyimiz tipli alqış-dua və qarğışların da yaranmasına yol açmışdır.

Bu danılmaz doğruluqdur ki, su yaşayışı ödəyən dörd (hava, su, torpaq, od) atributdan biridir. Su olmadan, ümumiyyətlə, təbiət və cəmiyyətdə mövcudluğu düşünmək mümkün deyil. Bu durum, sözsüz, insanları suya ehtiramla yanaşmağa yönəltmiş, onu qorumağa səsləmişdir. Məsələnin sözü gedən axarı uluslarımızda suyla bağlı sıra-sıra inam, etiqadların, sınamaların yaranmasına da səbəb olmuşdur. Belə ki, suya ruhun əksetdiricisi kimi baxılmış, bəd, xoflu, qorxulu yuxu sınsın deyə suya danışılmış (belə zənn olunub ki, suda görünən əks baxanın kölgəsi yox, ruhudur. O, sahibini qorxulu yuxudakı fəlakətdən qurtaracaq), sudan ovsun, fal vasitəsi kimi barınılmış, səfərə yollananın, uzaq yola çıxanın, müəyyən bir işin müsbət həlli sarıdan evdən gedənin arxasınca uğur simvolu kimi su səpilmiş (məişətimizdə bəzən səhv olaraq oğlan evinə yola salınan gəlinin də arxasınca su səpilir. Həqiqətdə isə, gəlinin arxasınca daş atılmalıdır ki, yəni o, getdiyi evdə həmişəlik düşüb qalsın), su aydınlıq, paklıq bəlgəsi bilindiyindən onu murdarlamaq, söymək bağışlanmaz günahlar sırasına yazılmışdır. Hətta bulağı, çayı murdarlamaqla onların suyunun quruyacağından da ehtiyat edilmişdir. İnsanlar bir-birlərinə "Su kimi əziz ol", "Sularınız axar-baxarlı olsun", "Suyun kəsilməsin", "Sucan ömrün olsun", "Su kimi aydınlığa çıxasan", "Soyuq-soyuq suların sənə içət olsun", "Qanlı-qanlı sulardan keçid versin", "Qamən axan görklü suyun qurumasın" , su içilərkən "Ölənlərin ehsanı olsun", "İmam Hüseynin payı olsun" kimi alqış-dualar, "Suyun kəsilsin", "Susuzluqdan boğazın qurusun", "Kərbəla şəhidləri kimi suya həsrət qalasan", "Su istəyən dilin lal olsun", "Qəbrin üstə tökülməyə su tapılmasın" və s. kimi qarğışlar söylənilmiş, "Su haqqı"- deyə ona and içilmiş, "Su dirilikdir", "Su olan yerdə abadlıq olar", "Su murdarlıq götürməz", "İlanı da su içəndə öldürməzlər" və s. kimi nəsihətlər deyilmişdir.

Xalq inam və etiqadlarında suyun canlı zənn olunması, deyiləni başa düşməsi sarıdan xəbərlər az deyil. Bu yön "Kitabi-Dədə Qorqud" da da qorunub. Salur Qazanın evinin kimlər tərəfindən talandığını öyrənmək üçün "Su haqq didarın görmüşdür. Mən bu suyla xəbərləşim" deyir. Və sorğusunun sonunda onun

*Ordumun xəbərin bilirmisən degil mana,*
*Qara başım qurban olsun, suyum sana!—*

müraciəti Oğuzlarda suyun doğrudan-doğruya canlı bilinməsi fikrini gerçəkləşdirir. Bunu arxada örnək verdiymiz "Qazılıq dağı axar sənin suların// Axar ikən axmaz olsun" qarğışından da aydın görürük.

Suyun canlı sayılması inamı Oğuzların sonrakı nəsillərində də yaşamaqdadır. Misal üçün, "Gəlingəzdirmə" törənində anadolulular gərdəkdən çıxmış gəlinə özünün və gələcəkdə övladlarının içəcəkləri su qaynaqları göstərilir. O da öz növbəsində suya hörmətlə salam verir (B.Ögəl). Yaxud, əsasən,Başqırd məişətində saxlanılan "Sugöstərmə" ritualının qaydası belədir: gərdəkdən çıxmış gəlini oğlan evinin oğul-uşaq böyütmüş xanım-xatun qadını yanına salıb yer-yurdun suları-çay, göl, bulaq üstə aparır. Gəlin bu sulara ehtiramla salam verir, bər-bəzəyindən gümüş pullar qoparıb sulara atır (Ə.İnan).

Xüsusən axar suyu canlı, sakral bilməyin yekunudur ki, vaxtlı-vaxtsız onun üstündən tullanmaq günah bilinib. Çox-çox yerlərdə bu, hətta yasaq sayılıb. Misal üçün, şəxsən müşahidəçisi olmuşuq ki, Dağlıq Altay türkləri Arjansuyun üstündən elə-belə keçmirlər. Bir kimsə bilmədən bu suyun üstündən atdansa, oradakılar tez onu həmin yerdəncə geri- əks tərəfə hoppanmağa çağırırlar. Yoxsa, etiqada görə, Arjansu ruhları- su tanrıları qəzəblənib fəlakət törədərlər.

Olsun ki, bu yön bir vaxt bizdə də olmuş və yalnız müəyyən məqamlarda axar su üstündən hoppanmağa yol verilmişdir. Və bu ritual ilin son çərşənbəsi, Novruz bayramında indi də icra olunmaqdadır.

Alqış-qarğışlardakı su məsələsindən və ümumiyyətlə inam, etiqadlarda, məişətdə suyun mövqeyindən ayrıca, daha geniş danışmaq olar. Burada mövzunun bizə verdiyi imkanı hesaba alaraq iki məsələdən də, çox yığcam şəkildə danışmaqla, su barədə söhbətimizi yekunlaşdıracağıq.

Birincisi, "Qəbrin üstə tökülməyə su tapılmasın", "Qəbristanlıqda çimizdiriləsən" qarğışları barədə. Bu mətnlərdəki motivin, müəyyən mənada, "Qızdırmalı adamı güllə yarasından ölənin qəbri üstə çimizdirsən sağalar" sınama mətnindəki motivlə bağlılığı da vardır. Əlbəttə, sınamadakı "güllə" şərti səciyyə daşıyır. Çünki odlu silahdan qabaq daş, qılınc, xəncər və s. soyuq silahlar var imiş və bunlardan da yara almış kimsənin qəlb yanğısı ölçülməz olur.

Sual oluna bilər ki, bu deyilənin misal göstərilmiş örnəklərə nə dəxli var? Sual yerindədir və imkanımız daxilində ona cavab veririk. Əvvəla deyək ki, ruhun ölməzliyi barədə söylənilmişlərdən geniş söz açmağa düşünürük ki, elə bir ehtiyac yoxdur. Amma bilməliyik ki, ruhun ölməzliyi təsəvvürü təfəkkürün varlığa münasibəti məsələsi ilə bağlıdır. Belə ki, "...çox qədimlərdə insanlar hələ öz bədənlərinin quruluşu haqqında heç bir şey bilmədikləri və yuxu görməyin səbəbini anlaya bilmədikləri zamanlarda, onlarda elə bir təsəvvür oyanmışdı ki, öz təfəkkür və duyğuları onların öz bədənlərinin fəaliyyəti olmayıb xüsusi bir şeyin- bu bədəndə yaşayan və öldükdə onu tərk edən ruhun fəaliyyətidir; hələ o zamandan etibarən insanlar bu ruhun xarici aləmə münasibəti üzərində düşünməli olmuşdur. Əgər adam öləndə ruh bədəndən ayrılır və yaşamaqda davam edirsə, bu halda onun üçün xüsusi bir ölüm uydurmağa heç bir əsas yoxdur" (F.Engels). Odur ki, qədimdə insanlar ölən kimsənin yenidən dirilib yaşayacığına inanmış, bu üzdən də onun qəbrinə ərzaq, su və s. nəsnələr qoymuşlar. Axtarış və müşahidələrdən bəlli olur ki, əski əyyamlarda qəbirlərin baş tərəfində

xüsusi açıq yer saxlanılırmış. Buradan içəriyə yemək-içmək, o sıradan su tökülürmüş. Sonrakı kəsimlərdə, bəlli səbəbdən, bu məsələyə də xitam verilmişdir. Amma bütün cəhdlərə baxmayaraq, qəbirə su axıtmaq ayini unutdurula bilməmiş və bir az seçilən olaraq indi də davam etməkdədir. Belə ki, ölən torpağa tapşırılandan sonra, ən nəhayət qəbirin üstündə çökək açıb oraya su axıdılar ki,bu da əski etiqadın nişanəsidir. Amma bu su yaralanmadan ölənin susuzluğunu söndürmək üçün azlıq eləyir. Buna görə də, onun ruhu guya öz sahibinin yanğısını gətirib sağlam adamın üstünə tökür və o da qızdırmalı olur. Belə halda, yaranmış inama görə, guya həmin şəxsi yaralanmadan ölənin qəbri üstə çimizdirsən, mərhum susuzluqdan qurtarır. Bunun da əvəzində onun ruhu hərarəti xəstənin canından çıxarır və o sağalır.

İkincisi, suyun canlı olmasını təsdiqləyən "Su haqq didarın görmüşdür" örnəyi ilə bağlı söhbətimizdir. Bu ifadəyə "Kitabi-Dədə Qorqud" da tuş oluruq. Salur Qazan ev-eşiyinin kimlər tərəfindən talan edildiyini öyrənmək üçün həm də su ilə danışır: "Su Haqq didarın görmüşdür, bən bu su ilə xəbərləşəyim"- deyir.

Nə üçün Salur Qazan suyun Tanrı üzünü gördüyünü söyləyir. Və əgər məsələ belədirsə, Qazan xan bunu haradan bilir? "Qurani-Kərim"in "Hüd" surəsinin 7-ci ayəsində Tanrının ilk olaraq Ərşi və bundan sonra suyu yaratması xəbər verilir. Surənin bu ayəsində Tanrının yalnız Ərş və sudan sonra göyü, yeri də altı günə yaratdığı bildirilir. "Əl-Ənbiya" surəsinin 30-cu ayəsində isə buyurulur ki: "Məgər kafir olanlar göylə yer bitişik ikən bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?!"

"Su Haqq didarın görmüşdür"ə təsəvvüf baxımından yanaşan O.Ş.Gökyayın dediklərini yazımıza gətiririk: "Suyun Haqq didarını gördüyü yolundakı inama gəlincə Ərşdən sonra ilk yaradılan sudur. Bu səbəbdən də Su Haqq didarın görmüşdür... İnanışa görə, Cənabi Haqq ilk dəfə suyu yaratmış, bu yaratmış olduğu varlığa nəzər qılmışdır. Haqq Didarı üzərində təcəlla edincə su taqət gətirməyib çağlamağa başlamışdır. Ələvi və Bəktaşilərə görə isə bunun açıqlaması belədir: Allahın varlığı insandan başqa yerdə görülmədiyinə görə, insanın da varlığı ancaq və ancaq bir qətrə sudan olduğuna görə, insan Haqqın cəmalının təzahüründə də suya borcludur...

Ələvilər arasında dolaşan bir mənqəbəyə görə, Həzrəti Peyğəmbər zamanında yaşayan Cabbar Qulu adında bir dərvişin su ilə arasında belə bir danışma keçmişdir:

Dərviş: - Ya su, belə inləyib axmanın səbəbi nədir?

Su: - Ya dərviş, dəliqanlının əbədiyə qovuşması üçün inləyib axması gərəkdir.

Dərviş: - Ya su, Cəmalullaha harada aşiq oldun?

Su: - Ya dərviş, yaradılışımda bir tərəfə axmadım, nə zaman ki, Allahın cəmalı təzahür etdi, ondan sonra axmağa başladım. Elə o zamanlardan bəri inlər, çağlaram.

... Cənabi Haqq suya öz cəmalını göstərmək lütfündə bulununca, su bu təcəllaya taqət gətirməyib "Hu!" (*Allah*-**B.A**) deyib çağlamağa başlamışdır".

Beləliklə, bu deyilənlər "Su Haqq didarın görmüşdür" deyiminin haralardan qaynaqlandığını aydınlaşdırır və elə bu yönün özü canlı bilinən su ilə bağlı alqış- duaların da yaranması yoluna işıq salır.

Söhbət, bir halda ki, "Kitabi-Dədə Qorqud"dakı deyimlə ilgili oldu, məqamdan istifadə edib daha bir örnəkdən söz açmağı gərəkli bilirik. Abidənin "Müqəddimə"sində Qorqud Atanın dilindən, ümumiyyətlə qadınları səciyyələndirən belə bir soylama vardır;

***Qarılar dörd düzlüdür;***
***Birisi solduran soydur.***
***Birisi dolduran toydur.***
***Birisi evin dayağıdır.***
***Birisi necə söylərsən, bayağıdır.***

Qorqud Ata burada "evin dayağı" olaraq tanıdılan qadınları öyür, oğul-uşaq anaları olmalarını istəyir.

"Solduran soy", "dolduran toy" tipinə daxil olan qadınlar isə iş- gücdən yapışmayan, acgöz, gözüboş, diliacı olanlardır və buna görə də Qorqud Ata belələrinin uşaqları olmasın, "evinə bunun kibi övrət gəlməsin" söyləyir.

Deyək ki, soylamada "bayağı" adlanan qadın tipi öz bəd əməlləri ilə "solduran soy"la "dolduran toy"u da kölgədə qoyur. Deyilənə diqqət yetirək:

"Ol Nuh peyğəmbərin eşşəgi əslidir. Ondan dəxi, sizi xanım, Allah saxlasın - ocağınıza buncılayın övrət gəlməsin!"

Nə üçün belə deyilir? Nə üçün "bayağı" qadınlar Nuh peyğəmbərin eşşəyi əsilli sayılır, amansız qarğışla damğalanır? Bu məsələnin izahı mifoloji görüşlərə üz tutmağı zəruriləşdirir. Və eyni zamanda, həmin izah "Eşşək xasiyyətinin bəlasın çəkəsən", "Eşşək dalında gizlənən başın batsın", "Eşşəksifət başına kül qoyum", "Əlin eşşək quyruğundan üzülməsin", "Eşşək quyruğunda sürünə-sürünə gedəsən" və s. qarğışlara da aydınlıq gətirir.

Xatırlatdığımız məsələ böyük türk bilginləri O.Şaiqlə B.Ögəlin də diqqətini çəkmişdir. Biz də burada elə onların dedikləri ilə kifayətlənəcəyik. O.Şaiq yazır ki, Nuhun öz gəmisinə ən son aldığı eşşək olmuşdur. Və şeytan da onunla birgə gəmiyə daxil olmuşdur. Əhvalat belədir: Şeytan Nuh peyğəmbərin eşşəyinin quyruğundan yapışıb onun arxasında gizlənir. Eşşək bunu bilir və gəlib qapının ağzında dayanaraq gəmiyə girmir. Birdən Nuh eşşəyə sarı çevrilib, ona müraciətlə deyir:

- Ey şeytan, keç içəri.

Beləliklə, şeytan məhz bu fürsətdən istifadə edib gəmiyə minir. Nuh şeytanı gəmidə gördükdə təəccüblə soruşur:

- Ya məlun, səni kim buyurdu gəmiyə?

Şeytan deyir:

- Sən buyurdun "Ey şeytan, keç içəri", mən də keçdim.

Deməli, buradan belə qənaət yaranır ki, "bayağı" qadınlar ona görə Nuh peyğəmbərin eşşəyi əsli sayılır ki, o, şeytanı özü ilə gəmiyə keçirmişdir.

Bu məsələdə B.Ögəlin bildirdikləri də çox maraqlıdır və bu, bilavasitə "Kitabi-Dədə Qorqud"dakı mətləblə bağlıdır. Möhtərəm bilgin "Türk mifolojisi" kitabında "Xannamə"dən iqtibas etdiyi bir epizodda bildirir ki, Nuh peyğəmbərin Ham, Sam, Yasəf adlı üç oğlu və Vəjilə adlı bir qızı varmış. Öz adıyla tarixə düşən "Tufan"ın başlayacağını öncədən bilən Nuh gəmi qurdurmaq istəyinə düşür. Və bu işi görməyi üç qonurgöz kişiyə həvalə eləyir. Əvəzində qızı Vəjiləni onlara verəcəyini vəd edir. Qonurgözlülər Nuhun tapşırığını can-başla yerinə yetirirlər. Vaxt-vədədə olan olur, keçən keçir. Tufan sovuşur. Nuh gəmiyə götürdükləri ilə geri qayıdır. Qonurgözlülər ondan Vəjiləni tələb edirlər, Nuh qalır iki od arasında. Qonurgözlülər üç, qız isə bir. Bəs indi bu iş necə olsun? Bu vaxt Allah - taala Cəbrayıl vasitəsilə sifariş göndərir ki, Nuh qızını eşşəyi və iti ilə bir dama salsın. Nuh deyilənə əməl eləyir. Sabahısı gəlib görür ki, eşşək də, it də dönüb olublar qız. Özləri də elə bil Vəjilədirlər ki, durublar.Nuh öz doğma qızını bunların arasında tanıya bilmir. Çar-naçar qalıb bunların hərəsini bir qonurgözə ərə verir.

Ay keçir, il dolanır. Nuh "qızları" başa çıxmağa yollanır. O gəlib qonurgözlərdən birinin yurduna yetişir. Hal-əhval tutub, yaşayışlarını soruşur. Qonurgöz deyir:

- Mənim xanımımla yaşamaq cəhənnəm əzabından da pisdir. O, hey deyinir, yetənə yetir, yetməyənə də bir daş atır. Çox bədxasiyyətdir.

Nuh barmağını dişləyir. Bilir ki, bu, itdən dönən qızdır. Onlarla sağollaşıb ikinci qonurgözgilə gəlir.

Bu qonurgöz də arvadının gəvələyə-gəvələyə yeməsindən və heç vaxt doymamasından, deyiləni bu qulağından alıb o biri qulağından sovuşdurmasından, qonaq-qara saymayan, ədəb-ərkan qanmayan, tənbəldən də tənbəl olmasından danışdıqca danışır. Nuh peyğəmbər başa düşür ki, bu, eşşəkdən dönən qızdır.

Üçüncü qonurgöz isə arvadının səliqə-sahmanından, işcilliyindən, ağıl-kamalından, mərifət yiyəsi olmasından danışdıqca doymur. Beləcə, Nuh öz qızını tanıyır.

Deməli, dastanı qoşub-düzən ozan görünür ki, bu mifdən xəbərdar imiş və bu üzdən də "dörd dürlü" qadınlardan "bayağı" olanını Nuh peyğəmbərin eşşəyi əsilli saymışdır.

Bu bir doğruluqdur ki, insan görmədiyi, bilavasitə şahidi olmadığı iş, olay barədə nə söz qoşur, nə də onu yüzilliklərin, minilliklərin çətinliklərindən keçirib nəsildən-nəsilə ötürür. Amma bu da var ki, müəyyən kəsimdə mütləq bir hadisə, adət-ənənə, mərasimlərlə bağlı yaranan və xüsusi məna daşıyan bəzi ifadələr ictimai inkişafın, gündəlik həyatın istək və tələblərinə uyğun olaraq elə mündəricəsi ilə ya tamamilə unudulur, ya da nitq etiketi qəlibinə düşməklə, danışıq vasitəsilə- dua, and, alqış, qarğışa çevrilir. Onların yaranışında ilkin mənanın nədən ibarət olduğunu müəyyənləşdirmək asan olmur. "Başına dönüm", "Başına dolanım", "Qurbanın olum", "Ayağının altında olum", yaxud bu ifadələrin özlərinin tam əks şəkildə deyilişi: "Qurbanım olasan", "Başıma dönəsən", "Ayağımın altında öləsən" və s. Eləcə də, "Başıküllü", "Qudurğan başına kül ələnsin", "başına kül ələnsin", "Daş başına", "Daşa dönəsən", "Başına daş düşsün", "Mən başıdaşlı", "Mən başıküllü" və s. ifadələr, sözsüz ki, daha çox qarğış örtüyünə bürünərək dilimizdə yaşamaq hüquqi qazanmışdır. İndi bu ifadələrin əsl mənası ilə tanış olmaq xatirinə həmin örtüyü azacıq qaldırmaqla maraqlı bir mənzərə ilə qarşılaşmalı olursan.

Misal verdiklərimizdən bəzilərinə diqqət edək. Çox güman ki, qədimlərdə hökmdarların cəza tədbirləri sırasında başa kül ələmək də var imiş. Hətta deyilənə görə, hökmdarın üzünə ağ olan kimsəni qudurmuş sayar və onu xüsusi qazılmış bir xəndəyə salıb ölənə qədər başına kül səpərmişlər

Bu yön doğrudan-doğruya müəllifi tanınmayan ədəbiyyat örnəkələrində də göstərilir. "Qurbani" dastanında (Qurbaninin şeirləri əsasında formalaşmış bu dastanın müəllifinin elə Qurbani olduğu iddia edilir. Biz də bu iddianın tərəfində duranlardanıq) buta yuxusuna getmiş Qurbaninin nə üçün oyanmamasını soruşduqda mətləbdən başı çıxmayan köpək qarı deyir: "-Ay aman, bunu tısbağa dalayıb, qudurub. Qalxıb bu saat məni dalayacaq. Mən də sizi dalayacağam. Adamlar hamısı quduracaq. Tez başına kül ələyin ölsün".

Yaxud, "Göyçək Fatma" nağılında qarğış nəticəsində əcayib-qərayib hala düşmüş qızın anası belə deyir: "Bıy başıma küllər, ay qız, sənə nə oldu ki, bu günə düşdün?"

Bu yön klassik Azərbaycan aşığı Abbas Tufarqanlının "Bəyənməz" rədifli qoşmasında da öz əksini tapmışdır:

***Adam var dəstinə verəsən güllər,***
***Adam var gözünə çəkəsən millər.***
***Tufarqanlı Abbas, başına küllər,***
***Nə günə düşmüsən, qarı bəyənməz.***

Deyək ki, Azərbaycan ərazilərində tapılmış və miladdan qabaq II-I yüzilliklərə aid edilən küp qəbirlərindəki ölülərin üstünə kül səpilməsi də müşahidə olunub. 2009-cu ildə Masallı rayonu ərazisində aşkar edilmiş və miladdan XV yüzilliyə aid olan qəbirdə də külün olduğu aşkarlanmışdır.

Bir kimsə dünyasını dəyişdikdə də onun yaxınları öz başlarına kül səpərmiş. Bu ona görə belə edilibmiş ki, başqaları onların yaslı, təziyəli olduqlarını bilsinlər. Misal üçün, bir ağı örnəyində deyilir ki:

*Bağça-bağda gül ağlar,*
*Bülbül ağlar,gül ağlar.*
*Oğlu ölən analar,*
*Başa tökər kül, ağlar.*

Aşağıdakının az qala eynini Homerin "İliada"sında da görürük. Burada deyilir ki, əfsanəvi Axilles dostu Patroklun ölüm xəbərini eşidən zaman fəryad qoparıb saçlarını yolur, başına ikiəlli kül səpir. Firdovsinin "Şahnamə" qəhrəmanlarından İrəcin ölümündən qəm-qüssəyə batan qoşunun bütün əsgərləri başlarına kül səpib dərdli-dərdli ağlayırlar.

Y.V.Çəmənzəminlinin "İki od arasında" romanında şərbaf Kazımın bir neçə nəfərlə mübahisəsi olur və papağı başından düşüb palçığa batır. O deyir: "...papağımı başıma qoyub gedəndə gördüm ki, həyətə adamlar girib-çıxır. Birindən soruşdum ki, burada nə var, dedi ki, adam ölüb. Fikirləşdim ki, elə yaxşı oldu: "gedib həm başsağlığı verərəm, həm də ehsan plovundan yeyib qarnımı dolduraram. İçəri girib oturdum. Bir də gördüm ki, məclisdən durub gedənlər yanıma gəlib mənə başsağlığı verirlər. Lap məəttəl qaldım. Dedim ya bu şəhərin əhli dəli olub, ya mən... Demə, bu şəhərdə adamı ölənin papağına palçıq sürtürmüşlər ki, təziyədar olduğunu bildirsinlər. Papağımın palçıqlı olduğundan məni təziyadər biliblər".

Göründüyü kimi, bu sonuncu xatırlatdığımız da bir qədər dəyişilmiş, fərqli şəkildə olsa da, əslində "Başa kül ələmək"lə eyni semantik yük daşıyır.

Zənnimizcə, "Yalançı dəyirmandan başıunlu gəldi, heç kəs inanmadı" məsəli də elə bu baxımdan açıma ehtiyac istəyir. Sözsüz, burada söhbət yalançının başının unlu olub-olmamasına camaatın inanmasından getmir. Əsas mətləb budur ki, dəyirmanda bir adam (bəlkə də dəyirmançı) ölüb. Bunu camaata bildirmək üçün yalançı başını unlayıb. Deməli, adamlar onun başını unlu görsələr də, yalançılığna görə dəyirmanda kiminsə ölməyinə inanmırlar.

Bəlli həqiqətdir ki, bir kimsə dünyasını dəyişəndə, adətən, onun qəbri tikilir və başdaşı qoyulur. Eyni zamanda, bu daşda ölənin adı, atasının adı, soyadı, təvəllüd tarixi, bəzən hətta peşəsi, sənəti ilə ilgili nişanələr də əks etdirilir. Bir çox hallarda başdaşında ölənin şəkli çəkilir, yaxud qoyulmuş büstü başdaşını əvəz eləyir. Bu məsələnin əsl mənası indi tamamilə unudulmuş çox əski görüşlərlə bağlıdır. Belə ki, vaxtilə elə zənn olunub ki, ölən yenidən dirilir və onun ruhu qoyulmuş büstə, başdaşındakı əksə keçir. O, gəlib-gedəni görür. Sonralar bu etiqad unudulsa da, qəbirlərə başdaşı, büst, heykəl qoymaq adəti davam etməkdədir. "Başa daş düşmək" tipli qarğışlar da elə bu təsəvvürlə sıx əlaqədə yaranmışdır və daşıdığı məna budur ki, həmin məzmunlu qarğışlar kimə söylənilirsə, deməli, bununla ona ölüm dilənmiş olur.

"Anan südü sənə halal olsun" alqışıyla yanaşı, "Anan südü sənə haram olsun" qarğışı da fəaldır. Bundan savayı, çox çətin bir işin yerinə yetirilməsi müqabilində "Anadan əmdiyim süd burnumdan gəldi" də deyilir. "Anadan əmdiyin süd burnundan gəlsin" qarğışı da söylənilir. Hətta bəzən elə ananın özü naxələf övladına "Əmizdirdiyim süd burnundan gəlsin" qarğışı da deməkdən çəkinmir.

Əsas mətləbdən öncə, ana südü ilə bağlı bir-iki kəlmə deməyə, düşünürəm ki, zərurət var. Bəlli olduğu üzrə, ana südü həmişə müqəddəs sayılmış, ondan keçilməmiş, nağıl və dastanlarımızda divlər, pərilər də analarının südünə and içdikdən sonra qərarlaşmış şərti pozmamışlar. Deyilənə görə, ananın övlada qarğışı da ata qarğışına nisbətən kəsərsiz olur. Çünki ananın övladına əmizdirdiyi süd onun qarğışının qarşısını alır, zərərsizləşdirir.

Ana südünün ağır yara üçün məlhəm olması da bəllidir. Misal üçün, "Kitabi-Dədə Qorqud"da atasının əli ilə ağır yara almış Buğac üstündə göz yaşı axıdan anasına bildirir: " - Ana, ağlamagil, mənə bu yaradan ölüm yoxdur, qorxmagil! Bozatlu Xızır mənə gəldi, üç kərə yaramı sığadı. Bu yaradan sənə ölüm yoxdur. Dağ çiçəyi, anan südü sənə məlhəmdir - dedi".

Uşağa süd verən ananın döşləri sızıldayanda da deyirlər ki, bəs körpəsi ağlayır. Elə bu yönün də əksi "Kitabi-Dədə Qorqud" da vardır. Yenə də elə Dirsə xanın xanımı oğlunun atası ilə ovdan qayıtmadığını gördükdə ərinə "Kəsilsin oğlan əmən süd damarım yaman sızlar" deyir.

Bəs onda "südün burnundan gəlməsi" qarğışı hansı görüşlərlə bağlıdır? Axı, anadan əmilən südün yenidən, həm də burundan gəlməsi mümkün olan iş deyil. Amma etiqada görə, uşağın anasından əmdiyi süd, yaşından asılı olmayaraq, guya ömrünün sonuna qədər onun canında qalır. Ölən dəfn olunduğu günün gecəsi qəbir onu o qədər sıxır ki, canda qalmış süd məhz həmin vaxt burnundan gəlir. Barəsində söz açdığımız qarğış da elə bu qaynaqdan mayalanmışdır.

Alqış və qarğışlarda mifoloji obrazlara, demonoloji varlıqlara müraciət olunduğunu da xatırlatmışdıq. Və bu obrazlardan daha çox yadda qalanları Al//Hal, Alanası// Hal anası, Aleybani, Quleybani, Cin , Div, Əntər, Xortdan, Andır, Çər, Qurd, Şeşə,Qaraçuxa Albastı, Qarabasdı, Alarvadi və digərləridir. Bu istiqamətdə olan bir neçə misalı nəzərə çatdırırıq: "Al bələsına gələsən", "Ciyərini halanası aparsın", "Cinli olasan", "Cin-şəyətin yığnağına düşəsən", "Çər bəlasına gələsən", "Div quyusunda çürüyəsən", "Əntər günə qalasan", "Xızır dadına çatsın", "Andıra qalasan", "Şeşə vurğununa gələsən", "Ərvahın behiştlik olsun", "Qaraçuxan qalxsın", "Aşığın alçı gəlsin" və s. və i.

Sözsüz ki, bu sayaq örnəklərin sayı çoxdan da çoxdur və bunların hər biri mifoloji aspektdən ayrıca araşdırma tələb edir. Ümumiyyətlə, alqış-qarğışların əski mədəniyyət çevrəsində mifoloji funksional semantikasının monoqrafik olaraq araşdırılması çox məsuliyyətli olsa da, gərəklidir və ömür fənalıq etməsə, gələcəkdə mütləq bu mövzuya qayıdacağıq.